# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına dair hesabat məruzəsi

**(Əvvəli 5-ci səhifədə).**

Qəbələ Olimpiya və İdman Kompleksində müxtəlif idman növləri üzrə idmançılarla məşğul olmaq üçün 6 nəfər idman mütəxəssisi kənardan işə cəlb olunmuşdur. Ümumilikdə 2015-ci ilin 6 ayı ərzində Qəbələ Olimpiya İdman Kompleksində 10 nəfər idman mütəxəssisi müxtəlif idman növləri üzrə idmançılarla məşğul olmuşdur.

2015-ci ilin 6 ayında kompleksin xidmətlərindən 23018 nəfər/gün istifadə olunmuşdur ki, bir günlük xidmətlərdən istifadə edənlərin orta sayı 173 nəfər təşkil etmişdir. Bir günlük xidmətlərdən istifadə edənlərin orta sayından 52 nəfəri ödənişli əsasla, 136 nəfəri ödənişsiz əsasla kompleksin xidmətlərindən istifadə etmişlər.

Kompleksin xidmətlərindən ödənişsiz əsasla istifadə edənlər Olimpiya İdman növləri üzrə təşkil olunmuş seksiyalarda məşğul olan idmançılardır.

Qəbələ Olimpiya İdman Kompleksində 4 Olimpiya İdman növü üzrə (sərbəst güləş, boks, cüdo və taekvando) ödənişsiz seksiyalar fəaliyyət göstərir ki, bu seksiyalarda 163 nəfər məktəb yaşlı uşaqlar idmanla məşğul olurlar.

2015-ci ilin 6 ayında Qəbələ Olimpiya İdman Kompleksində 7 idman tədbiri keçirilmişdir. Bu tədbirlərdən 3-ü rayon, 4-ü respublika səviyyəli tədbirlərdir.

Qəbələ Peşə Məktəbində tədris planlarına uyğun olaraq fevral ayında məktəbdə 4 buraxılış qrupunda nəzəri fənlərdən daxili imtahanlar keçirilmiş və məktəbin 68 nəfər şagirdi bu imtahanlardan müvəffəq qiymətlər almışlar. 18 fevral tarixindən məktəbin buraxılış qruplarının şagirdləri istehsalat təliminə göndərilmişlər. II kurs qrupları 15 həftəlik istehsalat təcrübəsinə göndərilmişlər.

İyun ayında şagird nailiyyətlərinin summativ (yekun) qiymətləndirilməsi aparılmış, ixtisas (sınaq) işləri yerinə yetirilmiş, Dövlət buraxılış-ixtisas imtahanları keçirilmişdir. Dövlət buraxılış-ixtisas imtahanlarında məktəbin 4 buraxılış qrupu üzrə 65 nəfər şagird iştirak etmişdir.

Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzində 18 fevral 2015-ci il tarixdən ehtibarən ümumi orta təhsil bazasından təhsil alan 2 qrupun şagirdləri 15 həftəlik istehsalat təcrübəsinə buraxılmışlar. Tam orta təhsil bazasından bir illik qruplarda təhsil alan şagirdlər isə həmin tarixdən aprel ayının 17-dək 7 həftəlik istehsalat təliminə başlamışlar.

Artıq 2015-2016-cı tədris ili üçün şagird qəbulu sifarişi və 2015-ci ilin buraxılışı haqqında bildiriş təhsil nazirliyinə təqdim olunmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları!**

Respublikamızda son illər əhəmiyyətli dərəcədə müşahidə edilən sosial - iqtisadi inkişaf, 2015-ci ilin I yarım ili ərzində də davam edib. Bu tendensiya aqrar sahə üçün də xarakterik olmuşdur. Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə Nazirlər Kabinetində ölkənin 2015-ci ilin 6 ayında sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə dair keçirilən iclasında qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bütövlükdə ölkə üzrə bu sahədə xeyli irəliləyiş nəzərə çarpır.

Rayonumuzun kənd təsərrüfatı sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Bu sahədə Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncamı xüsusi əhəmiyyət kəsb edir. Sərəncamda kənd təsərrüfatı məhsulları istehsalçılarına büdcə vəsaiti hesabına yardımların verilməsi nəzərdə tutulur. Həmin Sərəncamın rayonda icrası ilə əlaqədar olaraq 2014-cü ilin sonunda torpaq mülkiyyətçilərinə dövlət büdcəsinin vəsaiti hesabına 498551 manat yardım hesablanmış və həmin vəsait bu ilin birinci rübündə plastik kartlar vasitəsilə sahiblərinə çatdırılmışdır. Bundan əlavə rayon komissiyası tərəfindən cari ilin iyun ayında rayonun 1729 nəfər torpaq mülkiyyətçisinə əkin sahələrinin becərilməsinə görə 1.103.442 manat yardım hesablanmış və sənədlər aidiyyəti üzrə respublika komissiyasına təqdim edilmişdir.

2015-ci ilin məhsulu üçün 21300 hektar sahədə payızlıq dənli bitkilər əkilmişdir ki, onun da 14015 hektarını buğda, 7285 hektarını isə arpa sahələri təşkil etmişdir. Taxıl sahələri biçilmiş və 64645 ton məhsul istehsal olunmuşdur. Hər hektardan məhsuldarlıq 30,3 sentner təşkil etmişdir.

Torpaq sahibləri tərəfindən cari ilin məhsulu üçün 1159 hektar kartof, 2097 hektar tərəvəz əkilmişdir. İndiyədək həmin sahələrdən 148 ton kartof, 199 ton tərəvəz məhsulu toplanmışdır. Sahələrdən məhsul toplanışı davam edir.

Yüksək məhsuldarlığa təsir edən amillərdən biri də torpaqların münbitliyinin qabaqcadan öyrənilməsi, gübrələrə və dərman pereparatlarına olan tələbatın tam ödənilməsidir. 6 ay ərzində rayonda mövcud olan əkin sahələrində torpağın münbitliyini öyrənmək məqsədilə 7160 ədəd torpaq nümunəsi və 3572 məhsul nümunələri götürülərək laboratoriya analizindən keçirilmiş və nəticələr barədə torpaq mülkiyyətçilərinə məlumat verilmişdir.Həmçinin qeyd etmək lazımdır ki, əkinçilər güzəştli şərtlərlə gübrə və dərman preparatları ilə təmin edilirlər.

Keçən dövr ərzində ziyanvericilərə və alaq otlarına qarşı mübarizə tədbirləri həyata keçirilmişdir. Belə ki, 6 ay ərzində ziyanvericilərə qarşı 690 hektar, alaq otlarına qarşı mübarizə məqsədilə isə 4764 hektar sahə dərmanlanmışdır.

Cari ildə hüquqi və fiziki şəxslər tərəfindən rayon toxum müfəttişliyinə laboratoriya analizinə gətirilmiş qarğıdalı, kartof, yonca, keşniş toxumları yoxlanılmış və müvafiq rəy verilmişdir. Rayonda fəaliyyət göstərən 6 özəl toxumçuluq təsərrüfatlarının yetişdirdiyi 2151 hektar toxumluq əkin sahələrində aprabasiya işi aparılmış və hazırda taxıl nümunələrinin analizinin aparılması üçün hazırlıq işləri görülür.

Cari ilin 6 ayı ərzində Dövlət Meşə Fondu torpaqlarında 30,5 ha meşə əkini və səpini aparılmışdır. 12,7 ha sahədə tingliklərə xidmət işləri aparılmış və 7 km yanğın əleyhinə şum zolagı çəkilmişdir. 600 hektar meşə ərazisində xəstəliklərə qarşı meşə potoloji müayinə işləri aparılmışdır.

Hazırda 2 böyük və 4 kiçik həcmli aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda müəyyən qədər kənd təsərrüfatı texnikası cəmlənmişdir. Bundan əlavə rayon üzrə 410 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayon üzrə 80 ədəd taxılyığan kombayn, 53 ədəd tırtıllı və 444 ədəd təkərli traktor, 29 ədəd buldozer, 38 ədəd ekskvator və s. kənd təsərrüfatı texnikası mövcuddur. Kənd təsərrüfatı texnikası parkı da daim təzələnir. Bunun nəticəsidir ki, cari ilin məhsul toplanışında rayonumuzda texnika çatışmamazlığı hiss olunmamışdır.

Heyvandarlıq sahəsində də əhəmiyyətli dirçəliş hiss edilir. Hazırda rayon üzrə iribuynuzlu mal-qaranın sayı 48270 baş, qoyun-keçilər 218.540 baş, donuzların sayı 1042 baş olmuşdur. Keçən ilin müvafiq dövrü ilə müqayisədə heyvandarlıq məhsulları istehsalı xeyli artmışdır. Belə ki, ət istehsalı 2573 tona, süd istehsalı 17907 tona, yumurta istehsalı 5912 min ədədə, yun istehsalı isə 310 tona çatdırılmışdır. Hazıdra əhalinin quş əti və yumurtaya olan tələbatının ödənməsi məqsədilə rayonda əvvəllər mövcud olmuş broyler quşçuluq kompleksi təmir olunaraq istifadəyə verilmişdir. Rayonun əhalinin südə olan tələbatını ödəmək məqsədi ilə şəhər bazarında və bir neçə iri kənddə daimi süd satışı təşkil edilmişdir.

Rayonda 2 müasir heyvandarlıq kompleksləri fəaliyyətə başladıqdan sonra rayon əhalisinin ətə və südə olan tələbatının ödənməsində ciddi müsbət dəyişikliklər baş vermişdir.

Rayonda mal-qaranın damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 6 süni mayalama məntəqəsi fəaliyyət göstərir. 6 ay ərzində 1839 baş inək və düyələrdə süni mayalama aparılmış və süni mayalanmış heyvanlardan 1354 baş bala alınmışdır ki, bu da yüksək məhsuldar heyvanların əldə olunmasına imkan yaradacaqdır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. Hal-hazırda rayonda epizotik durum demək olar ki, sabitdir. 2015-ci ilin 6 ayı ərzində 11 baş iribuynuzlu və 7 baş xırdabuynuzlu heyvanın brüsellyoza qarşı müayinə zamanı xəstə olduğu müəyyən edilmişdir ki, həmin heyvanlar da təsərrüfatdan çıxarılmışdır.

Digər yoluxucu xəstəliklər-dabaq, qarayara, leptesprioz, çiçək və sair müşahidə edilməmişdir.

Rayon balıqyetişdirmə zavodunda hal-hazırda 75 min ədəd sağlam balıq körpəsi yetişdirilir. Həmin balıqlar cari ilin noyabr-dekabr aylarında Xəzər dənizinə və Kür çayına buraxılacaqdır. Bundan əlavə zavodda damazlıq məqsədi ilə nərə, ağ amur, yapon qızıl balığı cinsləri yetişdirilir.

Respublikamızın paytaxtı Bakı şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarında rayonumuzun kənd təsərrüfatı məhsulları istehsalçıları da fəal iştirak etmişlər. 2015-ci ilin 6 ayı ərzində həmin yarmarkalarda 27 ton tumlu, 29,5 ton qərzəkli meyvələr və 2 ton müxtəlif tərəvəz məhsulu satılmışdır.

Respublikamızın iqtisadiyyatındakı irəliləyişlər, aqrar sahəyə dövlət qayğısının daim artması, bu sahədə rayonda görülən işlər bizə deməyə imkan verir ki, rayonumuzun aqrar sahəsi və bu sahədə görülən işlər yüksək templərlə inkişaf edəcəkdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

2015-ci ilin birinci yarısında informasiya-kommunikasiya texnologiyaları şəbəkələrinin genişləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Rayon icra hakimiyyətində müasir informasiya texnologiyalarından istifadə olunmasının zəruriliyi nəzərə alınaraq, vətəndaşların müraciətlərinə baxılmasının operativliyini təmin etmək məqsədilə elektron poçtlar yaradılmışdır. Elektron ünvanlara göndərilən ərizə və şikayətlər dərhal araşdırılaraq, onlar barədə müvafiq tədbirlər görülür.

Cari ilin birinci yarısı ərzində rayon icra hakimiyyətinə ümumilikdə 382 ərizə daxil olmuşdur. Daxil olan ərizələrdən 122-i Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 22-i Milli Məclisdən, 6-ı Nazirlər Kabinetindən, 33-ü mərkəzi icra hakimiyyəti orqanlarından, 199-u isə vətəndaşlardan daxil olmuşdur. Ərizələr əsasən fərdi yaşayış evlərinin tikintisinə dair icazənin verilməsi, mənzillə təmin olunmaq, müalicəyə göndərilmək, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işlə təmin olunmaq və s. mövzularda yazılmışdır.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavab verilmişdir. Görülmüş işlərin nəticəsidir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə 2015-ci ilin birinci yarısında daxil olan ərizələrinin sayı 54 ədəd azalmışdır. Eləcə də 2015-ci ilin birinci yarısında 404 nəfər vətəndaş rayon icra hakimiyyəti başçısının qəbulunda iştitak etmişdir. Bir qayda olaraq vətəndaşların müraciətləri ilə bağlı cavabdeh şəxslər tərəfindən lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada yerinə yetirilmişdir.

2015-ci ilin ötən dövründə rayon icra hakimiyyəti başçısının 24 səyyar görüşqəbulu keçirilmişdir. Görüşlərdə 3145 nəfər iştirak etmiş, onlardan 192 nəfər çıxış edərək müxtəlif səpkili təkliflər irəli sürmüşlər. İrəli sürülən tələblərin və müraciətlərin 184-ü həll edilmiş, 14 məsələnin həlli isə respublikaının digər aidiyyatı təşkilatları tərəfindən icra edilməli olduğuna görə həmin müraciətlərlə əladar onların qarşısında təkliflər qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqlərinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif ocaqlarının, körpülərin tikintisi, subartezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**(Ardı 7-ci səhifədə).**